ədalət.2017.11 aprel.S.4.

Qədir Tərtərli

## FÜZULİ

Bir zirvəsən - şeir-sənət zirvəsi,
Bir töhfəsən - göyün yerə töhfəsi.
Sehrikardır rübabının nəfəsi,
Söz ustadım, söz Allahım Füzuli,
Səcdəgahım, qibləgahım Füzuli.

Ömür yolun qəmli karvan yoludu,
Ölməz eşqin ululardan uludu.
Söz xəzinən hikmətlərlə doludu,
Söz ustadım, söz Allahım Füzuli,
Səcdəgahım, qibləgahım Füzuli.

Qarlı qışın sonunu yaz görmüşəm,
Gecələri zülmət, bəyaz görmüşəm.
Dəryaları səndən dayaz görmüşəm,
Söz ustadım, söz Allahım Füzuli,
Səcdəgahım, qibləgahım Füzuli.

Çələng hördün Leyli-Məcnun dərdinə,
Dərd özü də bilmədi ki, dərdi nə?
Leyli yandı, Məcnun yandı dərdinə,
Söz ustadım, söz Allahım Füzuli,
Səcdəgahım, qibləgahım Füzuli.

Çaylar kimi durularam, bulannam,
Odun olub ocağına qalannam.
Hər kəlmənin mən başına dolannam,
Söz ustadım, söz Allahım Füzuli,
Səcdəgahım, qibləgahım Füzuli.

## QARABAĞ

Qara baxtın yaman qara yazıldı,
Heç bilmədin harda, hara yazıldı.
İsti qanla yuyulacaq dərdlərin
Buz nəfəsli varaqlara yazıldı.
Sən səndəki taleyə bax, baxta bax,
Ay Qarabağ, Qarabağ, ay Qarabağ!

Vətənsizlər kül üfürüb gözünə,
Müdam səni Vətən sayıb özünə.
İmansızlar danıb dinin, imanın,
Gahğir at tək dirəniblər üzünə.
Bu haqsızlıq sinən üstə çəkib dağ,
Ay Qarabağ, Qarabağ, ay Qarabağ!

Yuxusunu qarışdırıb Pənah xan,
Hikkəsindən gözlərinə damıb qan.
Bir gör kimlər at oynadır Şuşada,
Nə yatmısan İbrahim xan, qalx oyan
Soruş niyə viran qalıb bağça, bağ,
Ay Qarabağ, Qarabağ, ay Qarabağ!

Soluxubdu rəngi Xarıbülbülün,
Ətri qaçıb hər çiçəyin, hər gülün.
Nə vaxtdır ki, haray çəkir ruhları
Bu yerlərdə Üzeyirin, Bülbülün.
Aman Allah, zillətə bax, zülmə bax,
Ay Qarabağ, Qarabağ, ay Qarabağ!

Haqq səsini bir də ucalt Vətən, sən,
Yağı kimdir? Vətən mənəm, Vətən sən!
Biz deyirik, eşidilmir sözümüz,
Özün söylə, de, sən kimə Vətənsən?
Qalx ayağa, bir qalxmısan, bir də qalx,
Ay Qarabağ, Qarabağ, ay Qarabağ!

## QAYIT TORPAĞINA

Ay torpaqdan küsüb ayrılan insan,
Qayıt torpağına, torpaq sənindi.
Torpağa bağlıdı varlığın sənin,
Qayıt torpağına, torpaq sənindi.

Sən torpaq oğlusan, anandı torpaq,
Halına, gününə yanandı torpaq.
Ona xor baxana yamandı torpaq,
Qayıt torpağına, torpaq sənindi.

İstəsən dünyanı başdan-başa gəz,
Sənə ondan mərhəm tapılmaz əvəz.
Torpağa əyilən, şaha əyilməz,
Qayıt torpağına, torpaq sənindi.

Yaradan gör necə yaradıb onu,
Odur həyatının əvvəli, sonu.
Barı yaxşı düşün, dərk elə bunu,
Qayıt torpağına, torpaq sənindi.

## AĞLAMA BACIM, AĞLAMA

Şəhidlər Xiyabanında öz ərinin məzarı başında ağlayan gənc bir qadın gördüm.

O gözlərə qəm yaraşmır,
Ağlama bacım, ağlama!
Ağlamaqdan bir kar aşmır,
Ağlama bacım, ağlama!

Bu dərd bizə gəlməliydi,
Bilməyənlər bilməliydi.
Qəhrəmanlar ölməliydi,
Ağlama bacım, ağlama!

Qəlbimizdə çoxlu dağlar,
Xəzan oldu bağça-bağlar.
Sənə baxar, körpən ağlar,
Ağlama bacım, ağlama!

İgid ölər, izi itməz,
Kökü yoxsa, ağac bitməz.
Qoca dünya belə getməz,
Ağlama bacım, ağlama!

Vüqarlı dur, məğrur dayan,
Oda yandır, odlarda yan.
Qisasını alar zaman,
Ağlama bacım, ağlama!

Mərd analar ağlamayıb,
Başa qara bağlamayıb.
Həcər, Nigar ağlamayıb,
Ağlama bacım, ağlama!

Hər kəs öz əkdiyin biçər,
Qan qusduran zəhər içər.
Bu da gündü, gələr, keçər
Ağlama bacım, ağlama!

## DAHA HEÇ BİR KƏSƏ İNANMIRAM MƏN

Səmti bəlli deyil əsən küləyin,
İblislər cildinə girir mələyin.
Tərsinə fırlanır çərxi fələyin,
Zaman da zövq alır fitnədən feldən,
Daha heç bir kəsə inanmıram mən.

Göz yaşı da saxta, gülüş də saxta,
Gediş də saxtadı, gəliş də saxta.
Almaz da, qızıl da, gümüş də saxta
Necə ayırasan qızılı misdən,
Daha heç bir kəsə inanmıram mən.

Qardaş qardaşının üzünə durur,
Dost dediyin səni arxadan vurur,
Haqsızlar haqlıya məhkəmə qurur.
Kimə inanasan, kimə görəsən?
Daha heç bir kəsə inanmıram mən.

Qılınclar korşalıb qalır pasında,
Dəyişib adəti toyun, yasın da.
Gədalar allahlıq iddiasında,
İzahat istəyir qarışqa fildən,
Daha heç bir kəsə inanmıram mən.

Ülvi sevgi hanı, məhəbbət hanı?
Məhəbbət yolunda dəyanət hanı?
Düz ilqar, etibar, sədaqət hanı?
Aldanır sevilən, aldadır sevən,
Daha heç kəsə inanmıram mən.

Yalanlar dördnala çapır atını,
Kəsir həqiqətin yeddi qatını.
Əsli nadürüstlər danır zatını,
Bədxahlıq səpilir torpağa dən-dən,
Daha heç bir kəsə inanmıram mən.